

● Qarabağ Azərbaycandır!

# Dağlar kimi vüqarlı...



**Torpaqlarımızın azadlığı uğrunda qanlı savaş başlayar-başlamaz qələbələri ilə xalqımıza böyük sevinc yaşadan zabit və əsgərlərlə görüşmək üçün cəbhə bölgəsinə - Kəlbəcər istiqamətinə getdik. Ordumuzun uğurlarından doğan sevincimizi cəsur oğullarımızla da bölüşmək üçün səngərlərə, mövqelərə bir az da tez çatmağa tələsirdik.**

Zabit və əsgərlərin yanına qaranlıq düşməyə az qalmış çatdıq. Başı göylərə söykənən dağlar qoynunda mövqe tutmuş, elə dağlar kimi vüqarlı, qayalar kimi əzəmətli zabit və əsgərlərimiz döyüşlərdə böyük qəhrəmanlıq göstərirdilər. Düşmən onların güclü həmlələri qarşısında dayana bilməyərək mövqelərini, silah-sursatını, döyüş texnikalarını qoyub qaçırdı. İllərdən bəri işğal altında qalmış torpaqlarımız addım-addım erməni qəsbkarlarından azad olunurdu. Silahları ilə tarix yazan bu oğullar iştirakçısı olduqları döyüşlərdən həvəslə danışırdılar.

## Hər şey cəbhə üçün - hər şey qələbə üçün

Tarixin bütün dövrlərində xalq həmişə ordusuna arxa durub, ona dəstək olub. Sevindirici haldır ki, tarixi ənənə Vətən müharibəsinin səngimədiyi günlərdə də davam edirdi.

Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin dayaq məntəqəsində olarkən xalqın ordusuna necə böyük dəstək olduğunu gördük. Qürur duyduq və bir daha əmin olduq ki, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərin getdiyi gərgin günlərdə xalq Zəfər gününədək ordusunun yanındadır. Həmin günlərin şüarı isə "Hər şey cəbhə üçün - hər şey qələbə üçün" idi.

## Müharibə işğala son qoyulanacan davam etsin

O zaman düşmən təxribatı nəticəsində başlanan Vətən müharibəsi bir neçə gün davam edəndən sonra onun dayandırılacağı və yenidən atəşkəs elan olunacağı barədə söz-söhbətlər dolaşırdı. Xalqımız heç vaxt müharibə tərəfdarı olmayıb, qan tökülməsini istəməyib. Amma söhbət vətəndən, onun ərazi bütövlüyündən gedəndə, artıq bu istək heç nədən asılı olmadan dəyişir.

Uzun illərdən bəri erməni işğalından təngə gəlmiş insanlar saytlarda, mətbuat səhifələrində, sosial şəbəkələrdə müharibənin davam etməsini tələb edən rəylər yazırdılar. Rəylər ayrı-ayrı adamlar tərəfindən söylənilsə də, hamısı üst-üstə düşürdü, eyni hədəfi vururdu. Otuz ilə yaxın torpağı işğalda qalmış xalq müharibənin yarımçıq dayandırılmasının tərəfdarı deyildi. Hamı istəyirdi ki, döyüşlər qələbəyəcən, axırıncı erməni işğalçısı Laçın dəhlizindən çıxarılanadək davam etsin. Düşmən məhv olsun, diz çökdürülsün, yurdumuzdan qovulsun. Həmin günlər xalq da, hakimiyyət də istəyirdi ki, torpağında bir nəfər də olsun separatçı qalmasın. Ölkədə kimsənin dilindən "qaçqın", "köçkün" kəlmələri eşidilməsin. Onlar böyük sevinc içində doğma ocaqlarına dönsünlər. Kənd-kəsəklərindəki həyat işğaldan əvvəlki axarına düşsün.

30 ilə yaxın idi ki, hamı qələbəyə, zəfərə tamarzı qalmışdı. İşğal faktı uşaqdan tutmuş böyüyə kimi hər kəsi üzmüşdü. Hamı qələbə istəyirdi, hamı zəfər gözləyirdi. Şükürlər olsun ki, Vətən uğrunda gedən müqəddəs savaşa ara verilmədi, atəşkəs elan olunmadı. 44 gün davam edən döyüşlər ordumuzun qələbəsi ilə başa çatdı. Ermənilər məğlub olub ağ bayraq qaldırdılar. Vətən müharibəsində yumruq kimi birləşən ordumuz və xalqımız Ali Baş Komandanın rəhbərliyi altında düşmənə qalib gəldi, işğala son qoydu.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*